**1.** $y$-in hansı qiymətində $A(6;\ y)$ və $B(4;\ 5)$ nöqtələri arasındakı məsafə 2-yə bərabərdir?

*(27 aprel 2025, DİM)*

**2.** $(x-4)^2+y^2=52$ çevrəsinin $Oy$ oxu ilə kəsişmə nöqtələrinin koordinatlarını tapın.

A) $(6;\ 0)$ və $(-6;\ 0)$ B) $(0;\ 2)$ və $(0;\ -2)$
C) $(0;\ 6)$ və $(0;\ -6)$ D) $(4;\ 0)$ və $(-4;\ 0)$
E) $(0;\ 4)$ və $(0;\ -4)$

*(20 aprel 2025, DİM)*

**3.** Qarşı təpələrindən biri koordinat başlanğıcında digəri isə $B(8;\ -8)$ nöqtəsində olan kvadratın sahəsini tapın.

*(13 aprel 2025, DİM)*

**4.** $x^2+y^2-6x+4y-12=0$ tənliyi ilə verilmiş çevrənin radiusunu tapın.

A) 10 B) 6 C) 5 D) 3 E) 8

*(5 may 2024, DİM)*

**5.** Çevrənin ən uzaq iki nöqtəsinin koordinatları $A(3;-2)$ və $B(-5;4)$ olarsa, bu çevrənin tənliyini yazın.

*(21 aprel 2024, DİM)*

**6.** Koordinat müstəvisində $ABCD$ kvadratının $A(-2;3)$, $B(4;3)$ və $C(4;-3)$ təpə nöqtələri verilmişdir. $D$ təpə nöqtəsinin koordinatlaını tapın.

A) $(-3;2)$ B) $(2;3)$ C) $(-2;3)$
D) $(-2;-3)$ E) $(2;-3)$

*(7 aprel 2024, DİM)*

**7.** $A(6k-k^2;k^2)$ və $B(6k-32;10-7k)$ nöqtələrinin orta nöqtəsi absis oxunun müsbət yarımoxunda yerləşərsə, $k$-nı tapın.

*(30 aprel 2023, DİM)*

**8.** $x^2+(y-7)^2=144$ çevrəsinin tənliyi verilmişdir. Bu çevrənin $Oy$ oxunu kəsdiyi nöqtələrin koordinatlarını tapın.

A) –5 və 19 B) 0 və 7 C) –19 və 5
D) 7 və 0 E) 7 və 12

*(16 aprel 2023, DİM)*

**9.** $a$-nın hansı qiymətində $(1;-4)$ nöqtəsi $x-ay=5$ düz xətti üzərindədir?

A) 1 B) 2 C) 3 D) –1 E) –2

*(9 aprel 2023, DİM)*

**10.** $x^2+(y-3)^2=49$ tənliyi ilə verilən çevrənin diametrini tapın.

*(9 aprel 2023, DİM)*

**11.** $10x - 5y = 20$ düz xətti üzərində ordinatı 6 olan nöqtənin absisini tapın.

A) 6 B) 3 C) 5 D) 7 E) 10

*(1 may 2022, DİM)*

**12.** $ABCD$ kvadratının təpə nöqtələrinin koordinatları $A(4;1)$, $C(2;-1)$, $D(2;1)$ olarsa, $B$ nöqtəsinin koordinatlarının cəmini tapın.

A) B(4;−1) B) B(−3;−1) C) B(−4;1)
D) B(−1;2) E) B(−1;−2)

*(30 aprel 2022, DİM)*

**13.** Diametrinin uc nöqtələri (5; –3) və (–3; 3) olarsa, bu çevrənin tənliyini yazın.

*(23 aprel 2022, DİM)*

**14.** $c$-nin hansı qiymətində $5x - 4y + c = 0$ düz xəttinin qrafiki $(6; -3)$ nöqtəsindən keçər?

A) 42 B) -40 C) -42 D) 40 E) 12

*(17 aprel 2022, DİM)*

**15.** $A(-8,4)$ və $B(-3,5)$ olarsa, $A$ və $B$ nöqtələri arasındakı məsafəni hesablayın.

A) 4,8 B) 5,9 C) 3,9 D) 4,9 E) 11,9

*(16 aprel 2022, DİM)*

Düzgün cavablar

1 (5) 2C 3 (64) 4C

5 $(x+1)^2+(y-1)^2=25$ 6D 7 (5) 8A

9A 10 (14) 11 (C) 12A

13 $(x-1)^2+y^2=25$ 14C 15D